# QƏFƏS

Gözəl bir bağda idi qəfəs. Barmaqlıqları gözoxşayan boyalar və naxışlarla işlənmişdi. Qübbə biçimində idi tavanı. Bu qəfəsə, onun boyalarına, naxışlarına baxdıqca göz doymurdu. Böyük bir qəfəs idi o. İçində bir adam var idi. Adamı kim salmışdı bu qəfəsə? Qəfəsi kim gətirmişdi bu bağa? Bunu bilən yoxdu.

O gözəl bağda nə bir insan görünürdü, nə də bir insan izini göstərə biləcək bir cığır. Bağ o qədər gözəl idi ki! Hər rəngdə quşların, hər çeşid meyvə ağaclarının və dumduru axan suların yurdu idi ora.

Bu bağın ən gözəl bir yerinə qoyulan qəfəsin içindəki adam gənc bir oğlan idi. Qəfəsin dörd yanında quşlar uçuşurdu. Bir çoxunun dimdiyində hər cür meyvələr vardı. Quşlar bağın hər yerindən gətirdikləri meyvələri qəfəsin içində oturan gənc oğlanın yanına salıb və yeni-yeni meyvələr gətirmək üçün bağın görünməz yerlərinə qanadlanırdılar. Qəfəsdə qalan quşlar da oğlanın çiyinlərinə qonub incə dimdikləri və yumşaq qanadları ilə onun üz-gözünü oxşayırdılar. Ancaq nə yazıq ki, o, acından ölməsin deyə hərdən-bir könülsüzcə bir meyvə yeyirdi və heç nədən ləzzət ala bilmirdi.

Gözəl səsi vardı oğlanın. O qədər həzin və yanıqlı oxuyurdu ki! Oxuyarkən, quşlar susaraq onu dinləyirdilər. Nə quşların sevgisi, nə də bu qədər gözəllik onun ürəyini açıb, bir təsəlli ola bilmirdi.

Onun kədərli səsi o şən və gözəl bağı da kədərləndirirdi. Duman gəlirdi və o yaşıl, günəşli bağı bürüyürdü. Bu, onun yanıqlı ahları idi. Quşlar nə etsələr də ona bir kiçik təsəlli belə ola bilmirdilər. Quşlar nə biləydilər ki, onun ağlından nələr keçir. Onlar bilmirdilər ki, o, bu qəfəsdən uzaqlarda görə bilmədiyi sevdiyi yerləri, dostlarını diləyir. Onlar bilmirdilər ki, qəfəs cənnətdə də olsa qəfəsdir və azadlıq ola bilməz.

Onlar bütün bunlardan xəbərləri olsaydı dimdikləri və caynaqları ilə qəfəsin o gözəl, o yaraşıqlı barmaqlıqlarını qırar və o sevdikləri insanı dilədiyi dünyasına qovuşdurardılar.

1990. Bonn